Novruz bayramınız mübarək!

www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-05 (1766) 15 mart 2023-cü il




## Böyük Elmi Şurada imtahan sessiyasının yekunları müzakirə olunub

**Rektor, professor Gəray Gəraybəyli: İllər ərzində apardığımız islahatların müsbət nəticələrini görməkdəyik**

səh. 3

### Rektor Gəray Gəraybəyli universitetimizdə çalışan qadınları təbrik edib

səh. 2

### ATU ilə Belarus Dövlət Tibb Universiteti əməkdaşlığa başlayır

səh. 2

### Harvard Universitetinin professoru ATU-nun rəhbərliyi ilə görüşüb

səh. 2



### Tədris prosesi daim diqqət mərkəzindədir

Görülən işlər keyfiyyətin yaxşılaşmasına və tələbələrin razılığına səbəb olur

səh. 2

### Qızıl Aypara Cəmiyyətinin ATU bölməsinin rəhbərliyi yenilənib

səh. 4

### Universitetimizdə yeni fənlərin tədrisinə başlanılıb

səh. 5



### Necə edək ki, “ürək desin yaşa hələ”?

Gənclərdə ürək-təzyiq xəstəliklərinin çoxaldığını bildirən Qalib İmanov çıxış yollarını da göstərir

səh. 5

# Rektor Gəray Gəraybəyli ATU-da çalışan qadınları təbrik edib



**Azərbaycanın möhtəşəm tarixi, o cümlədən səhiyyəsinin bir çox parlaq səhifələri qadınların adı ilə bağlıdır. Bu gün ölkəmizdə bütün sahələr üzrə təmsil olunan Azərbaycan xanımları Azərbaycan Tibb Universitetində də əzmkarlıqla çalışırlar.**

ATU-nun xanım əməkdaşları ilə görüşdə bu barədə çıxış edən rektor, professor Gəray Gəraybəyli universitetin fəaliyyətinin ağırlığının böyük bir qisminin məhz xanımların çiynində olduğunu qeyd edib: "Universitetimizin bütün sahələrində siz bu məsuliyyəti bizimlə bölüşürsünüz, Azərbaycanın davamlı inkişafı naminə var qüvvənizlə çalışırsınız. Sizin uğurunuz kollektivimizin, universitetimizin uğurudur. Bu isə son nəticədə Azərbaycan xalqının və dövlətimizin uğurları deməkdir. Ailə dəyərlərinin, milli-mənəvi dəyərlərimizin qorunmasında həlledici rolu olan xanımlarımızın fəaliyyəti hər birimizdə böyük məmnunluq hissi doğurur".

Rektor bütün xanım əməkdaşlarımızı 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edərək, onlara möhkəm cansağlığı, ailə səadəti və yüksək amallar naminə fəaliyyətlərində uğurlar arzulayıb.

# ATU ilə Belarus Dövlət Tibb Universiteti əməkdaşlığa başlayır

**Azərbaycan Tibb Universiteti ölkəmizin ali məktəbləri arasında əcnəbi tələbələrin sayına görə liderdir. Hazırda ATU-da 30-dan çox xarici ölkənin vətəndaşları təhsil alır. Bununla yanaşı, Tibb Universiteti dünyanın müxtəlif ölkələrinin ali məktəbləri ilə yaxından əməkdaşlıq edir. Tezliklə bu sıraya Belarusdan olan tələbələr də daxil olacaq. Bu barədə ATU və Belarus Dövlət Tibb Universitetinin (BDTU) rəhbər şəxsləri arasında onlayn görüş zaman ilkin razılaşma əldə olunub.**

Görüş zamanı ATU-nun rektoru, professor Gəray Gəraybəyli universitetin tarixi, müasir dövrdə fəaliyyəti, beynəlxalq standartlara uyğun tədris proqramı haqqında ətraflı məlumat verib, hazırda 3 minə yaxın xarici tələbəmizin olduğunu bildirib. ATU-nun dünyanın 80-ə yaxın elm və təhsil qurumu ilə əməkdaşlıq etdiyini deyən rektor G.Gəraybəyli bu sırada Belarusdan həmkarların da olmasını mümkün sayıb.




BDTU-nun rektoru, tibb elmləri doktoru, professor Sergey Rubnikoviç rəhbərlik etdiyi ali məktəbin ölkədə unikal təhsil, elm və tibbi praktika mərkəzi sayıldığını, burada 52 dövlətdən 2 minə yaxın xarici tələbənin təhsil aldığını bildirib: "Belarus və Azərbaycan tibb universitetlərinin oxşar cəhətləri çoxdur. Hər qurum elm, tədris və müalicəvi sahədə unikal təcrübəyə malikdir. Bu baxımdan ATU ilə əməkdaşlıq, təcrübə mübadiləsinin aparılması bizim üçün çox maraqlıdır".

Qeyd olunub ki, iki dövlətin başçıları arasındakı dost münasibəti nəzərə alaraq, bu ölkələrin ali məktəbləri də qarşılıqlı maraq kəsb edən məsələləri müzakirəyə çıxarmalıdırlar. Sonda tərəflər təhsil, elm, müalicə və beynəlxalq əlaqələr sahəsində qarşılıqlı fəaliyyətin istiqamətlərini müəyyənləşdiriblər.

Görüşdə BDTU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Vasiliy Rudenok, ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, İnnovasiya və tədrisdə keyfiyyət şöbəsinin müdiri, baş müəllim Aygün Babayeva, Mətbuat xidmətinin rəhbəri Günel Aslanova iştirak ediblər.

# Harvard Universitetinin professoru ATU-nun rəhbərliyi ilə görüşüb

**Harvard Universitetinin (ABŞ) uşaq psixiatrı, professor Kerim Munir Bakıya səfəri çərçivəsində Azərbaycan Tibb Universitetini ziyarət edib. ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşdə qonağın Bakıda keçirdiyi təlim proqramı və onun əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.**

Professor Kerim Munir qeyd edib ki, Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzində "Tədqiqat təklifləri necə yazılmalıdır" adlı dördgünlük təlim proqramı təşkil olunub. Tədbirdə təlimçi qismində iştirak edən K.Munir uşaq psixiatriyası üzrə tədqiqat təklifləri yazmaq və tədqiqat layihələri ilə bağlı maliyyəni təmin etmək istiqamətində məlumatları bölüşüb. Tədqiqatçılar, klinik psixoloqlar və psixi sağlamlıq mütəxəssislərinin qatıldığı təlim proqramında ATU-nun əməkdaşları da iştirak ediblər. ATU-nun rektoru, professor Gəray Gəraybəyli bu cür tədbirlərin tədqiqat aparmaq və layihə hazırlamaq üzrə bacarıqlarını təkmilləşdirmək istəyən mütəxəssislər üçün çox faydalı olduğunu vurğulayıb. Qeyd edib ki, burada məqsəd qarşılıqlı təcrübə mübadiləsi olmaqla yanaşı, ölkədə gənc tədqiqatçı və alimlərin yetişdirilməsinə də kömək etməkdir.



Görüşdə ATU-nun Elmi işlər üzrə prorektoru, professor Rauf Bəylərov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev, Psixi Sağlamlıq Mərkəzinin direktoru, professor Fuad İsmayılov iştirak ediblər.

# Müəllim və tələbələrin rahatlığı üçün daha bir addım

**Azərbaycan Tibb Universitetində müəllimlərin və tələbələrin rahatlığı üçün daha bir addım atılıb. Qeyd edək ki, ATU-nun 1 saylı tədris binasının ikinci mərtəbəsi Tədris Terapevtik Klinikaya məxsusdur. Buradakı 39 otaqda klinikada yerləşən kafedralar tərəfindən tədris prosesi aparacaq.**

Universitetin rektoru, yanaşı olduqlarını nəzərə alaraq, bu iki bina arasında keçid (körpü) inşa edilməsinə göstəriş verib. Açıq tender aparılıb, nəticədə qalib olan şirkət tərəfindən keçid inşa olunub. Bu gün rektor, professor Gəray Gəraybəyli keçidlə tanış olub.

Bu keçid əsasən qış aylarında tələbələrin iki bina arasında gedib-gəlmələri üçün, onların rahatlığı məqsədilə inşa edilib və razılıqla qarşılanıb.

# Tədris prosesi daim diqqət mərkəzindədir

## Görülən işlər keyfiyyətin yaxşılaşmasına və tələbələrin razılığına səbəb olur

**Universitetimizdə imtahan sessiyası yekunlaşsa da, nəticələr hələ də müzakirə olunmaqdadır. Əslində imtahan geniş tədris prosesinin yalnız bir hissəsidir. Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov imtahana qədər bu sahədə görülən işlərin əhəmiyyətindən danışıb.**

O, ayda bir dəfə kafedraların tədris işləri üzrə müdir müavinlərinin iştirakı ilə görüş keçirildiyini və bu görüşə Tədris departamentinin Dərs verənlərlə iş şöbəsinin müdirinin, əgər zərurət yaranarsa İmtahan Mərkəzinin direktorunun, fənn ekspertlərinin də dəvət edildiyini bildirib. K.Yaqubov bu görüşlər zamanı diqqət mərkəzində saxlanılması tövsiyə olunan vacib məqamlara toxunub: "Universitetimizin müxtəlif qurumları tərəfindən əməkdaşların nizam-intizam prosesləri ilə əlaqədar aparılan yoxlamaların nəticələrinin təhlili onu göstərir ki, biz işimizi semestr başlayandan daha fəal formada qurmalıyıq. Yoxlamaların effektivliyi üçün kafedranı yoxlamağa gedən əməkdaşlar hansı qrupun bölgüdə kimə düşdüyünü bilməlidir. Bir həftə müddətində qrupların əməkdaşlar arasında bölgüsünün siyahısı, başqa sözlə desək, bir müəllimin ştat vahidinə uyğun olaraq iş qrafiki fakültə



dekanlığına və Tədris departamentinə verilməlidir. Çünki mövcud Əmək Məcəlləsinin təlimatına əsasən, bir ştatda olan əməkdaşın həftəlik iş vaxtı 36 saatdır. Müvafiq olaraq saatların miqdarı 0,5 ştatda onun yarısı, 0,25 ştatda isə dörddə biri qədərdir. Ona görə də yoxlamaya gedənlərin həmin gün kafedrada hansı əməkdaşın saat neçədən neçəyə qədər işdə olması haqqında dəqiq məlumatı olur. Əvvəllər kafedra müdirinin və yaxud başqa bir məsul şəxsin fərqli ştatlarda olan əməkdaşlarla bağlı fərqli saatlar göstərməsi müəyyən problemlər yaradırdı".

Departament rəhbərinin sözlərinə görə, diqqət mərkəzində saxlanılması tövsiyə olunan digər məsələ kafedralarda artıq dərs saatlarının əməkdaşlar arasında bölgüsü və əməkhaqqının ödənilməsi ilə bağlıdır: "Kafedralarda dərs saatlarının bölgüsü semestrin əvvəlində aparıldığından, bəzi kafedra müdirləri, eləcə də digər əməkdaşlar rektora müraciət edirlər ki, semestrin yarısında əməkhaqları ödənilsin. Amma təlimata uyğun olaraq, həmin dərs saatlarının ödənişi ildə bir dəfə, tədris ili başa çatdıqdan sonra aparılır. Təbii ki, semestrin yarısında da ödənişlər aparıla bilər. Bu, yalnız iki halda - kənardan əməkdaş cəlb olunduqda və ya ödənişli əsaslarla yaradılmış təkrar dinləmə qruplarında mümkündür".

Tədris prosesində aparılan islahatların cari qiymətləndirməyə də təsir göstərdiyini deyən dosent K.Yaqubov qeyd edib ki, Böyük Elmi Şuranın qərarı ilə artıq kolleqium semestrdə 3 dəfə yox, bir dəfə aparılır: "I kursda tələbə kolleqiumdan 40 bal, digər kurslarda isə 30 bal toplaya bilər. Bu semestr cari qiymətləndirmənin vaxtı isə aprel ayının 10-dan başlanacaq. Bu tarix ona görə seçilib ki, 8 Mart və Novruz bayramı günlərindəki dərs proqramları o vaxta qədər tələbələrə tədris olunsun və keçilməyən mövzu kolleqiuma düşməsin. Görüşlərdə iştirak edən əməkdaşlara tövsiyə olunub ki, Müalicə və Stomatologiya fakültələrində mühazirə materialları kolleqiumda yox, imtahan suallarında öz əksini tapsın. Çünki tələbə sayı çox olan fakültələrin bəzi qrup birləşmələrində mühazirə əvvəl, bəzilərində isə sonra başlayır ki, bu da kolleqiumda problemlərə, konkret olaraq apellyasiya şikayətlərinin artmasına gətirib çıxarır. Nəhayət, həmin iclasda tövsiyə olunan əsas məsələlərdən biri də kafedradan çıxan və kafedraya daxil olan sənədlərin icraatı ilə əlaqədardır. Çalışırıq ki, ilin sonunda Elm və Təhsil Nazirliyi tərəfindən aparılması nəzərdə tutulan yoxlamalara qədər bu sənədlər qaydasında olsun".

K.Yaqubov onu da diqqətə çatdırıb ki, tələbələrin imtahan nəticələrinin vaxtında ETS-də yerləşdirilməməsi müəyyən problemlər yaradır. Bu və digər başqa səbəblərdən tələbələrin təqaüdlərinin hazırlanıb əmrləşdirilməsində ləngimələr baş verir. O, kafedra müdirləri, tədris işləri üzrə müdir müavinləri və fənn ekspertləri ilə ayrı-ayrılıqda keçirilən görüşlərdən də danışıb.

"Problemli testlər kolleqium və imtahan zamanı apellyasiya şikayətinin çoxluğu ilə yanaşı, imtahan vərəqinin yenidən işlənməsi zərurətini də ortaya qoyur" – deyə vurğulayan departamentin sədri, əvvəlki illərlə müqayisədə bu səpkili problemlərin xeyli azaldığını söyləyib. Əsas məsuliyyətin kafedra müdirlərinin üzərinə düşdüyünü bildirərək, artıq kafedraların çoxunda mövcud problemlərin diqqətlə təhlil olunduğunu deyib. Xatırladıb ki, həm davamiyyət balının, həm də kolleqiumun nəticələrinin sistemə işlənməsində yol verilən nöqsanlar tədricən aradan qaldırılır. Həmçinin ETS-də problem yaradan müəllimlərin sayı azalıb. Hər kafedra sərbəst işləri bacarıq və yaxud təqdimat formasında yerinə yetirmək istədikləri barədə Tədris departamentinə müraciət edir. Departament isə təqdim olunan siyahını nəzərə alaraq, bu istiqamətdə öz işini planlaşdırır.

**ATU-nun Böyük Elmi Şurasının növbəti iclası fevralın 28-də keçirilib. İclası açan universitetin rektoru, professor Gəray Gəraybəyli öncə Uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyevanı yubileyi münasibətilə təbrik edərək, onun tibbi kadrların hazırlanmasında uzunmüddətli və səmərəli fəaliyyətini, eləcə də universitetin ictimai həyatında fəal iştirakını yüksək qiymətləndirib.**

# Böyük Elmi Şurada imtahan sessiyasının yekunları müzakirə olunub

## Rektor, professor Gəray Gəraybəyli: İllər ərzində apardığımız islahatların müsbət nəticələrini görməkdəyik

Bundan sonra rektor gündəlikdəki məsələləri diqqətə çatdırıb və "Azərbaycan Tibb Universitetində 2022/2023-cü tədris ilinin payız semestrinin imtahan sessiyasının yekunları və yaz semestrində tədris prosesinin daha da yaxşılaşdırılması işində universitet kollektivinin vəzifələri" barədə hesabat məruzəsi ilə çıxış etmək üçün sözü Tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyevə verib.

O, çıxışının əvvəlində 2023-cü ilin ölkəmizdə Ulu Öndərin 100 illiyi ilə əlaqədar olaraq "Heydər Əliyev ili" elan edildiyini, bununla bağlı geniş tədbirlər planı hazırlandığını, onların həyata keçirilməsi üçün universitetin prorektorlarına, fakültə dekanlarına və digər şöbələrə universitet rəhbərliyi tərəfindən müvafiq göstərişlər verildiyini xatırladıb.

Yeni tədris ilindən tətbiq olunan qaydalar haqqında danışan prorektor bildirib ki, Elmi Şuranın 5 may 2022-ci il tarixli iclasının qərarına əsasən, I kursa daxil olan tələbələrin semestr ərzində biliyinin qiymətləndirilməsi zamanı toplanan maksimal 50 bal artıq yeni qaydalarla hesablanır. Belə ki, tələbələrin davamiyyətinə görə ayrılmış maksimal 10 bal ləğv edilib. Bu zaman tələbələrin fənn üzrə davamiyyətsizliyinin maksimal həddi, fənnə ayrılmış kreditin ümumi auditoriya saatlarının 20%-i qədər, eyni zamanda tələbələrin mühazirələrə davamiyyətsizliyinin maksimal həddi mühazirə saatlarının 40%-i qədər müəyyən olunub. Davamiyyətsizliyi göstərilən hədləri aşan tələbələr həmin fənn üzrə yekun imtahana buraxılmır. Davamiyyət üçün ayrılmış maksimal 10 bal, tələbələrin semestr ərzində biliyinin cari qiymətləndirilməsi üçün ayrılmış maksimal 30 bala əlavə olunur. Beləliklə, tələbələrin biliyinin cari-aralıq qiymətləndirilməsi semestr ərzində bir dəfə, təyin edilmiş müddət ərzində, mərkəzləşmiş qaydada, 40 ballıq şkala üzrə İmtahan Mərkəzi tərəfindən həyata keçirilir. Digər kurslarda isə davamiyyət balı saxlanılmaqla, tələbələrin cari-aralıq qiymətləndirilməsi semestr ərzində bir dəfə, təyin edilmiş müddət ərzində, mərkəzləşmiş qaydada, 30 ballıq şkala üzrə İmtahan Mərkəzində aparılır. Həmçinin tələbələrin fərdi yaradıcılığı və ya klinik bacarığı sərbəst işlər vasitəsilə qiymətləndirilir. Sərbəst işlərin təməl fənlər blokunda təqdimat, klinik fənlər blokunda isə klinik bacarıq formasında olmasına üstünlük verilir.

S.Əliyev hesabat məruzəsində tələbələrin və əməkdaşların davamiyyətini daim nəzarətdə saxlamağın vacibliyinə də toxunaraq, bu məsələdə kafedra müdirlərinin, eyni zamanda tədris hissəsi və dekanlıqların üzərinə düşən məsuliyyəti bir daha yada salıb. Həmçinin kafedra müdirlərinə dönə-dönə tapşırılmasına baxmayaraq, mühazirə mətnlərini proqrama uyğun 3 dildə (Azərbaycan, rus, ingilis) həm universitetin rəsmi saytında, həm də ETS-də cəmi 11 kafedranın yerləşdirdiyini, hətta mühazirə mətnlərini saytda heç yerləşdirməyən kafedraların da olduğunu təəssüflə qeyd edib.

"2022/2023-cü tədris ilinin payız semestrində nəinki ölkəmizdə, hətta dünyanın inkişaf etmiş ölkələrində rezidentura və magistraturada təhsilini davam etdirə biləcək, həmçinin praktik sahədə fəaliyyət göstərəcək gənc həkim, hərbi həkim, əczaçı və hərbi feldşer kadrlarının hazırlanmasını qarşımıza məqsəd qoymuşuq" – deyən prorektor, cari tədris ilinin payız semestrinin imtahan sessiyasının nəticələri üzərində xüsusi dayanıb: "İmtahan sessiyasını 6323 nəfər tələbə müvəffəqiyyətlə başa vurub. Onlardan 1102 nəfəri (17.4%) sessiyanı "əla" qiymətlərlə, 3043 nəfəri (48.1%) "əla" və "yaxşı" qiymətlərlə, 2178 nəfər (34.4%) isə qarışıq qiymətlərlə bitirib. Sessiyanın nəticələrinə görə, 459 nəfərin (7.25%), onlardan 272 nəfərin 1 fəndən, 106 nəfərin 2, 81 nəfərin isə 3 fəndən akademik borcu (F) qalıb. Universitet üzrə mütləq mənimsəmə göstəricisi 93.23% (keçən il 95.4%), keyfiyyət göstəricisi 61.11% (keçən il 67.7%) olub".



Çıxışında bütün kafedralarda çalışan professor-müəllim heyətinin tələbələrin gündəlik bilik səviyyəsinin qiymətləndirilməsinə eyni meyarlarla yanaşmadığın söyləyən məruzəçi, aşağı kurslarda gündəlik sorğularda qiymətlərin "qısqanclıqla", yuxarı kurslarda isə "əliaçıqlıqla" yazıldığını vurğulayıb. Onun sözlərinə görə, bütün bu halları aradan qaldırmaq və ortaq nöqtəni tapmaq üçün ayrı-ayrı təcrübəli müəllimlərin iştirakı ilə kredit sistemi ilə tədrisin təşkilinə, biliyin qiymətləndirilməsinə həsr olunmuş elmi-praktik konfransların keçirilməsinə və digər universitetlərin də professor-müəllim heyətini dəvət etməklə qabaqcıl təcrübənin öyrənilməsinə böyük ehtiyac var.

Məruzədə universitetimizin reytinqinin ölkə universitetləri arasında yüksək yerlərdə olması da öz əksini tapıb. Dövlət İmtahan Mərkəzi tərəfindən aparılan imtahanlar zamanı IV qrup üzrə yüksək bal toplayanların böyük əksəriyyətinin bizim universiteti seçməsi bunu sübut edən faktlardan biri kimi dəyərləndirilib. Lakin həmin tələbələrin universitetdə təhsil zamanı əldə etdiyi nəticələrin heç də qaneedici olmadığı bildirilib: "Belə ki, 6 il ərzində universitetə daxil olan 146 nəfər Prezident təqaüdçüsündən ancaq 28 nəfəri indiyədək bu adı doğruldub. Bunlar adi rəqəm deyil, hər biri IV qrupda təhsil almağı seçən, tam orta təhsili əla qiymətlərlə başa vuran və çətin test sınaqlarından ən yüksək nəticələr əldə edən gənclərimizdir. Gələcəkdə təhsilin təşkilində islahatlar aparmaqla onların potensialını tibb elminin inkişafına, yüksək ixtisaslı həkim və əczaçı kadrların hazırlanmasına yönəltməliyik. Bu bizim bir universitet olaraq Vətən və xalq qarşısında ümdə borcumuzdur".

Çıxışı zamanı Apellyasiya Komissiyasının fəaliyyətindən də bəhs edən prorektor, bu semestrdən etibarən tətbiq edilən yenilikdən də danışıb: "Tələbə imtahan zamanı apellyasiyaya müraciət edəcəyi sualın nömrəsini ya yaddaşında saxlamalı, ya da imtahanın gedişi zamanı kompüter proqramında nəzərdə tutulmuş hissədə bayraqla işarələməlidir. Yalnız bu halda həmin suallara görə tələbənin müraciəti komissiya tərəfindən qəbul edilir. Bu semestrdə tətbiq etdiyimiz yenilik artıq öz bəhrəsini verib, tələbələrin əsassız şikayətlərinin sayı bir qədər azalıb və komissiyanın iş fəaliyyətinin keyfiyyəti isə artıb".

S.Əliyev 2022 /2023-cü tədris ilinin payız semestrində keçirilən aralıq qiymətləndirmə zamanı kütləvi olan əsaslı müraciətlərin siyahısı ilə də şura üzvlərini tanış edib. Apellyasiya komissiyası 29 dekabr 2022-ci il tarixindən 1 fevral 2023-ci il tarixinə qədər kurs imtahanlarından şikayətləri olan tələbələrin, 3-7 fevral 2023-ci il tarixlərində isə imtahanlarda kəsiri olan tələbələrin apellyasiya şikayətlərinə baxıb.

Hesabat məruzəsində 2022/2023-ci tədris ilinin I semestrinin sonunda ATU-da 44 ölkədən 2280 nəfər tələbənin, bundan əlavə 76 nəfər əcnəbi rezidentin təhsil aldığını da diqqətə çatdıran prorektor qeyd edib ki, universitetimizdə xarici tələbələrin sayının artırılması məqsədilə dekanlıq təhsil sahəsində dünyanın müxtəlif ölkələri və universitetləri ilə əlaqələri genişləndirir. Xarici tələbələrlə iş üzrə dekanlığın yerinə yetirdiyi digər vacib işlərdən biri də tələbələrin Bakı şəhərində müvəqqəti yaşamaq hüququnu təmin etmək üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti ilə sıx əlaqə saxlayaraq onların qeydiyyatını təşkil etməkdən ibarətdir.




S.Əliyev cari semestrin sonunda əczaçılıq fakültəsi istisna olmaqla, bütün ixtisaslar üzrə Dövlət Attestasiya sınaqlarının kredit sistemi ilə aparılacağını vurğulayaraq, universitet kollektivinin bundan sonra da gənc nəslin tərbiyəsində və təhsilində əlindən gələni etməyə çalışacağına əminliyini ifadə edib.

Məruzə ətrafında çıxış edən Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov yeni dərs ilinin I semestrində Tibb və sağlamlıq elmləri təhsili kafedrasında həm I, həm də II kurs tələbələrinin klinik bacarıqlar fənninin tədrisinə cəlb olunduğunu söyləyib. Eyni zamanda həmin fənn üzrə tələbələrin biliyinin OSKİ üsulu ilə qiymətləndirildiyini, rektorun bu prosesləri şəxsən izlədiyini diqqətə çatdırıb. Onu da vurğulayıb ki, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialı ilə bağlanan müqavilənin şərtlərinə əsasən, bu tədris ilindən müalicə fakültələrinin V kursunda təhsil alan tələbələrimiz ginekologiya, terapiya, pediatriya və cərrahi xəstəliklər blokundan olan ixtisaslar üzrə istehsalat təcrübəsini Bakı Sağlamlıq Mərkəzində keçirlər. K.Yaqubov tələbələrin imtahan nəticələrinin elektron sistemə vaxtında yerləşdirilməməsi səbəbindən yaranan problemlərə də toxunub.

İmtahan Mərkəzinin tələblərini nəzərə alaraq bu il imtahan sessiyasında testlərin hazırlanmasına daha məsuliyyətlə yanaşıldığını deyən I Mamalıq-ginekologiya kafedrasının müdiri, professor Elmira Əliyeva, gələcəkdə ekspertlərin sayının artırılacağını və özünün də imtahanlarda mütləq iştirak edəcəyini bildirib.

Ailə təbabəti kafedrasının müdiri, professor İbrahim İsayev tələbələrin biliyinin qiymətləndirilməsinin iki kriteriya üzərində aparılmasına diqqət çəkib. Yəni birinci kriteriya tələbənin nəyi bilməsi, ikinci kriteriya isə nəyi bacarmasıdır. Birinci kriteriya üzrə universitetimizin nəticələrinin çox yüksək olduğunu vurğulayan kafedra müdiri qeyd edib ki, əsas problemlər ikinci kriteriyadan qaynaqlanır. Çünki bazar iqtisadiyyatı şəraitində məzunların özlərinə iş yeri tapmasında onların nəyi bacarması xüsusi rol oynayır. Professor qardaş Türkiyənin təcrübəsindən bəhrələnərək, universitetin nəzdində ailə və sağlamlıq mərkəzlərinin yaradılması təklifini irəli sürüb.

Məruzə və çıxışlarda səslənən fikirləri yekunlaşdıran rektor, illər ərzində aparılan islahatların konkret nəticələrinin artıq göründüyünü, bunların həm obyektiv göstəricilərdə, həm də tələbələrin fikir və rəylərində öz əksini tapdığı vurğulayıb. Universitetin rəhbəri son aylarda elektron poçtuna I kurs tələbələri tərəfindən 200-dən artıq müraciətin daxil olduğunu da şura üzvlərinin diqqətinə çatdırıb: "Tələbələr artıq Tibb Universitetində oxumağın çətinliyindən şikayətlənirlər. Açığını deyim ki, bundan çox məmnunam. Çünki indiyədək tələbələrdən belə söz eşitməmişəm. Əksinə, əvvəllər 50 testə 6-8 dəqiqəyə cavab verərək çox yüksək bal toplayırdılar. Görünən odur ki, imtahanlarda yüksək nəticə qazanmaq üçün kitablara müraciət etməyə məcburdurlar. Bütün bunlar aparılan dəyişikliklərin düzgün olduğunu göstərir və yeniliklər digər kurslarda da tətbiq olunacaq".

Praktik vərdişlərin öyrənilməsi məsələsinə də münasibət bildirən rektor, "tələbənin nəyi bilməsindən daha çox nəyi bacarması aktualdır" fikrini dəstəkləyərək, bu istiqamətdə ölkə rəhbərliyi tərəfindən yaradılan Simulyasiya Mərkəzində 4 fənn üzrə bacarıqların öyrədilməsi və obyektiv olaraq qiymətləndirilməsinin üstünlüklərindən danışıb.

Rektor G.Gəraybəyli çıxışında testlərlə bağlı problemlərə, yeni ixtisasların açılmasına, nəzəri kafedralarda proqramları yenidən baxılmasının vacibliyinə də toxunaraq, mühazirələrin həcmini azaltmağı tövsiyə edib. Yekun nitqində proqramları hələ də saytda yerləşdirməyən kafedra müdirlərinə kəskin iradını bildirən rektor, onların qarşısında bu prosesi may ayınadək başa çatdırmaq tələbi qoyub.

Hesabat məruzəsinə dair müzakirələr bitdikdən sonra Türkiyə Cümhuriyyətində baş vermiş təbii fəlakətlə əlaqədar olaraq ATU tərəfindən göstərilən maddi yardım, eləcə də universitetin klinikalarına maddi yardımın göstərilməsi, xarici tələbələrin sığortası barədə məsələlərə baxılıb. Həmçinin Milli Məclisin deputatı tərəfindən cərrah, professor Elçin Ağayevə ünvanlanan təşəkkür məktubu oxunub.

Dərslik, dərs vəsaitləri, metodik vəsaitlərin nəşrinə razılıq verən Elmi Şura, elmlər doktoru işlərinin mövzusunu və elmi məsləhətçisini, elmi adları təsdiqləməklə öz işini yekunlaşdırıb.

**Arif MƏMMƏDLİ**

# Tədris Cərrahiyyə Klinikasında Elmi Şura yaradılıb

**Tədris Cərrahiyyə Klinikasında yeni orqan - təlim-tədris proseslərinin idarəedilməsi üzrə Elmi Şura yaradılıb.**



Klinikanın direktoru, dosent Mücahit Avcilin sözlərinə görə, Elmi Şuranın yaradılmasında əsas məqsəd tədris planının qurulması, elmi-tədqiqat və təlim-tərbiyə məsələlərinin müzakirəsini təşkil etməkdən ibarətdir: "Belə bir qurumun yaradılması və fəaliyyəti çox əhəmiyyətlidir. Çünki ATU-nun Tədris Cərrahiyyə Klinikasında vətəndaşlarımıza keyfiyyətli tibbi xidmətlər göstərilməsi ilə yanaşı, tələbələrin təhsili üçün də hərtərəfli şərait yaradılıb. Tələbələrin elmi işləri üçün klinikamızda şərait yaratmaq fəaliyyətimizin əsas istiqamətlərindən birini təşkil edir. Əminəm ki, Elmi Şurada təmsil olunan tanınmış və peşəkar həkimlərimiz, alimlər qurumun fəal və effektiv fəaliyyəti üçün böyük işlər görəcəklər".

Elmi Şuranın sədri - TCK direktorunun müalicə işləri üzrə müavini, professor Fariz Camalov, katibi - direktorun elmi işlər üzrə müavini, professor Davud Pənahov, üzvləri isə II Cərrahi xəstəliklər kafedrasının dosenti Elçin Abdinov, Ağız və üz-çənə cərrahiyyəsi kafedrasının professoru Çingiz Rəhimov, I Cərrahi xəstəliklər kafedrasının professoru Nuru Bayramov və II Cərrahi xəstəliklər kafedrasının professoru Xaləddin Musayev seçiliblər.

Qərara əsasən, Elmi Şuranın üzvləri 3 aydan bir dəyişəcək.

# Qadınlar səhiyyə sahəsində önəmli paya sahibdir

**"Qadınlar bəşər tarixi boyu güclü olublar, müqəddəs ana şərəfini uca tutaraq mübariz xarakterləri ilə tanınıblar. Bununla belə, qadınlar hər zaman kövrək təbiətləri ilə seçiliblər". Bu fikirlər Tədris Cərrahiyyə Klinikasında 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə keçirilən görüşdə səsləndirilib.**



Klinikanın direktoru, dosent Mücahit Avcil çıxış edərək Beynəlxalq Qadınlar Gününün tarixi haqqında danışıb. Maraqlı təqdimatla çıxış edən direktor, xanımların zəif cins yox, məhz güclü, fədakar təbiətli olduqlarını, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında və nəsildən-nəslə çatdırılmasında xüsusi rol oynadıqlarını vurğulayıb. Qadınların həyatımızda, ailənin qurulması və qorunmasında danılmaz rolu ilə yanaşı, əmək fəaliyyətində də öncül yerlərdə olduğunu qeyd edib. Xüsusilə insanpərvərlik rəmzi olan xeyirxah xanımlar səhiyyə sahəsində tibbi xidmətlərin keyfiyyətinin artırılmasında mühüm paya sahibdirlər.

Dosent M.Avcil əminliklə bildirib ki, klinikanın xanım əməkdaşları bundan sonra da öz işlərində əzmkarlıqla çalışacaq, hər kəsi yeni müvəffəqiyyətləri ilə sevindirəcəklər. O, bütün kollektiv adından xanım əməkdaşları 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib, onlara cansağlığı, səadət və uğurlar arzulayıb.

# Tələbəmiz Qazaxıstandan mükafat qazanıb

**ATU-nun Müalicə-profilaktika fakültəsinin tələbəsi Tamara Mahalova Qazaxıstanın Astana şəhərində keçirilən "VI beynəlxalq kitab nəşri" və "Ən yaxşı gənc alimlər - 2022" layihələrində iştirak edib, 1-ci dərəcəli diplom və medalla mükafatlandırılıb.**

Qeyd edək ki, İnsan anatomiyası kafedrasının müdiri, dosent Anar Abdullayevin elmi rəhbərliyi altında onun "Çivini dəliyin morfoloji xüsusiyyətləri" mövzusunda yazdığı tezis həmin konfransın çap materiallarında yer alıb.



# Qızıl Aypara Cəmiyyətinin ATU bölməsinin rəhbərliyi yenilənib

**Martın 9-da Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (QAC) Azərbaycan Tibb Universiteti bölməsinin toplantısı keçirilib. Toplantıda universitetin Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov çıxış edib.**

C.Qasımov bildirib ki, Cəmiyyətin ATU bölməsinin sədri başqa işə keçməsi ilə əlaqədar olaraq, qurum bir müddət aktiv fəaliyyətini dayandırıb. O, bölmənin əvvəlki fəaliyyətini bərpa etməsi üçün təşkilati məsələlərə baxılacağını qeyd edib. Səs çoxluğu ilə Tibbi və bioloji fizika kafedrasının professoru Hüseyn Abıyev bölməyə sədr, II Müalicə-profilaktika fakültəsinin 3-cü kurs tələbəsi Zivər Hüseynova isə sədr müavini seçilib. Həmçinin isə İdarəetmə Şurasına və Maliyyə Komissiyasına üzvlər seçilib.



Toplantıda iştirak edən ATU-nun Tərbiyə işləri üzrə prorektoru, dosent Zülfüqar Musabəyov və Azərbaycan QAC-ın vitse-prezidenti Qafar Əsgərzadə bölmənin yeni rəhbərliyinə uğurlar arzulayıblar. Q.Əsgərzadə çıxışında QAC-ın universitet bömələsinin 18 il öncə yaranmasından və aktiv fəaliyyətindən söhbət açıb: "Martın 10-u Azərbaycan QAC-ın yaranmasının 103 yaşı tamam olur. Cəmiyyətimiz ölkəmizdə yeganə qurumdur ki, səhiyyə işçiləri və Tibb Universitetinin əməkdaşları ilə birgə işləyir. Məqsədimiz xeyirxahlıq, kimsəsiz insanlara yardım etməkdir. Qızıl Aypara Cəmiyyəti Beynəlxalq Qızıl Xaç və Aypara Cəmiyyətləri Federasiyasının üzvüdür. 60-dan çox əməkdaşımız orden və medallarla təltif olunub. Yəqin bilirsiniz ki, beynəlxalq mükafat olan "Florens Naytingeyl" medalı yalnız tibb bacıları və qardaşlarına verilir. Dünyada bu medalı cəmi 1500 nəfər alıb, onlardan 13-ü azərbaycanlıdır. Əməkdaşlarımızdan 2-si sovet dönəmində, 11-i isə 2005-ci ildən bu yana təltif olunublar. Bu isə cəmiyyətimiz üçün böyük göstəricidir".

# Əməkdaşlarımız Hindistanda beynəlxalq konqresdə iştirak ediblər

**Fevralın 19-23-də Hindistanın Gandinagar şəhərində Dünya Pediatrlar Assosiasiyasının 30-cu Konqresi və Hind Pediatrik Akademiyasının 60-cı konfransı keçirilib. Hindistan 46 ildən sonra ilk dəfə IPA 2023 Konqresinə ev sahibliyi edib.**

Konfransda müxtəlif ölkələrdən 500 nümayəndə, dünyanın aparıcı tibb jurnallarının redaktorları, həmçinin Ümumdünya Səhiyyə Təşkilatının baş elmi işçisi dr. Sumya Svaminathan iştirak edirdi.IPA Konqresi yerli və xarici məşhur pediatrları bir araya gətirərək, müxtəlif mövzular, o cümlədən yeni tədqiqatlar, innovasiyalar, qabaqcıl texnologiyalar, tibbi avadanlıqlar, pediatriyanın üzləşdiyi problemlər və onların həlli yollarını müzakirəyə çıxarıb. Bundan əlavə, İnnovasiya Mərkəzində



dünyanın hər yerindən ən son innovasiyalar - texnologiyalar, tibbi alətlər və avadanlıqlar nümayiş etdirilib.

Beynəlxalq tədbirdə Azərbaycan Pediatrlar Assosiasiyasının (APA) prezidenti, ATU-nun dosenti Təranə Tağızadə onlayn və ATU-nun II Uşaq xəstəlikləri kafedrasının əməkdaşı, APA-nın Beynəlxalq əlaqələr şöbəsinin rəhbəri, ATU-nun Tələbə Həmkarlar İttifaqının sədri Qoşqar İsmayılov əyani məruzələrlə çıxış ediblər.

Q.İsmayılovun çıxışı "Genetik testlərin aparılmasında etik problemlər" mövzusuna həsr olunub. Məruzədə Azərbaycan Prezidenti İlham Əliyev və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səhiyyə və uşaq sağlamlığına göstərdikləri böyük diqqət xüsusi vurğulanıb.

**Türk Dövlətlər Təşkilatı Türk Universitetlər Birliyinin Orhun mübadilə proqramı çərçivəsində Türkiyənin Niğde Ömer Halisdemir Universitetinin Tibb fakültəsinin İctimai sağlamlıq kafedrasının müəllimi Çiğdem Samanci Tekin fevralın 16-dan martın 3-dək Azərbaycan Tibb Universitetinin İctimai sağlamlıq və səhiyyənin təşkili və Yoluxucu xəstəliklər kafedralarında akademik fəaliyyət göstərib.**

# Türkiyəli müəllim ATU-da fəaliyyət göstərib

Görüşdə Beynəlxalq əlaqələr şöbəsinin müdiri, dosent Müşfiq Orucov, müdir müavini, dosent Nigar Ələkbərova və mübadilə proqramları üzrə koordinator Dünya Bayramova da iştirak ediblər. Görüşün sonunda qonaq müəllimə müvafiq sertifikat təqdim olunub.

Qonaq müəllim bu müddətdə tələbələr və maqistrlər üçün mühazirələr oxuyub, praktik məşğələ dərsləri keçirib. O, İctimai səhiyyə fakültəsinin digər kafedraları ilə də tanış olub, Türkiyədə səhiyyə sistemi və tibb təhsilinin incəlikləri barədə müzakirələr aparılıb.



Dr. Samanci Tekin ATU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru, dosent Orxan İsayev və İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva tərəfindən qəbul edilib. Görüş zamanı universitetimizdə, o cümlədən İctimai səhiyyə fakültəsində aparılan tədris islahatları və yeniliklər barədə ətraflı məlumat verilib, qardaş ölkə Türkiyənin bir çox universitetləri ilə sıx əməkdaşlıq fəaliyyətindən danışılıb. Qonaq müəllim ATU-dakı akademik fəaliyyətinin maraqlı və məhsuldar keçdiyini ifadə edib.

# Universitetimizdə yeni fənlərin tədrisinə başlanılıb

**Azərbaycan Tibb Universitetində bu semestrdən etibarən I Daxili xəstəliklər kafedrasında 3-cü kurs tələbələrinə nefrologiya və kardiologiya fənləri tədris olunmağa başlayıb. Adıçəkilən kafedranın müdiri, professor Vəsadət Əzizovun bildirdiyinə görə, Elmi Şura daxili xəstəliklər kafedralarında fənlərin ixtisas bölgüsü ilə aparılması ilə bağlı qərar qəbul edib:**

"Biz bunun doğru qərar olduğunu qəbul edirik. Mənim rəhbərlik etdiyim kafedraya isə kardiologiya və nefrologiya üzrə tədrisin aparılması həvalə olunub. Kardiologiya üzrə mütəxəssislərimiz kifayət qədər olsa da, nefrologiya sahəsində azlıq təşkil edir. Kafedramızda nefrologiyanın tədrisi bu sahənin mütəxəssisləri Aytən Məmmədzadə ilə Şəlalə İsmayılovaya tapşırılıb. Hesab edirəm ki, adıçəkilən fənnin tədrisinin bu sahədə savadlı mütəxəssislərin hazırlanmasında böyük əhəmiyyəti olacaq".

I Daxili xəstəliklər kafedrasının dosenti, Tədris Terapevtik Klinikanın Nefrologiya şöbəsinin müdiri Aytən Məmmədzadə də bu ildən etibarən 3-cü kursda 40 qrupa nefrologiya fənninin tədris olunduğunu bildirib: "Qrupların 16-sı əcnəbi, 24-ü isə yerli tələbələrdən ibarətdir. İki ixtisaslı mütəxəssis tədrisin keyfiyyətli şəkildə təşkili məqsədilə mühazirə materiallarının və praktik dərslərin hazırlanması ilə məşğul olur".



Dosent dünyada nefroloji xəstəliklərin günü-gündən artdığını, bunların sırasında böyrək xəstəliklərinin önə çıxdığını qeyd edib. Böyrək patologiyalarında əsas çətinliyin xəstələrin özlərindəki problemdən gec xəbər tutmaları və bu səbəbdən də həkimə ağırlaşmış mərhələlərdə müraciət etmələri olduğunu bildirib: "Şəkərli diabet, arterial hipertenziyalı xəstələrdə ağırlaşmaların baş verməsi də böyrək patologiyaları ilə nəticələnir. İnkişaf etmiş ölkələrdə olduğu kimi, ölkəmizdə də bu sahəyə son zamanlar diqqət artırılıb və bu istiqamətdə mütəxəssislər yetişdirilir. Bunun isə təməli, təbii ki, Tibb Universitetindən başlayır və tələbələrimiz universitetdə baza biliklərinə sahib olmalıdırlar".



A.Məmmədzadə tədrisin istiqamətləri, tələbələrə klinik bacarıqların necə öyrədilməsi ilə bağlı də məlumat verib: "Dünyadakı ən yeni ədəbiyyatlardan istifadə edirik. Nefrologiyaya aid olan klinik bacarıqları təqdim edir, Tələbə Elmi cəmiyyətlərində iştirak üçün mövzular verir, sonra onlardan öyrətdiklərimizi soruşuruq. Aprel ayında TEC-də məruzə ilə çıxış etməsi üçün 5 nəfəri nefrologiya üzrə hazırlayırıq.

Kafedrada 2 nefroloji şöbə - Stasionar və hemodializ, Efferent terapiya şöbələri fəaliyyət göstərir. Hər iki şöbədə xəstələrimiz müalicə alır. Xəstələrin diaqnostika və müalicəsini tələbələrimizə də nümayiş etdiririk ki, bilikləri praktik cəhətdən də möhkəmlənsin".

Dosent nefrologiyaya aid dərs vəsaitinin işıq üzü gördüyünü, kafedranın nefroloqlarının müasir ədəbiyyat və protokollara əsaslanaraq yeni dərslik üzərində işlədiyini də diqqətimizə çatdırıb: "Tələbələrə təqdim etdiyimiz materialları prezentasiya və çap formasında Elektron Tələbə Sistemimizə də yerləşdiririk. Bu, tələbələrin təməl biliklərini daha da yüksəltmək üçündür. Ümid edirik ki, bu fənn daha da inkişaf edəcək, tələblərimiz universitetdə nefroloji biliklərə tam yiyələnəcək və yaxın gələcəkdə nefrologiya üzrə rezidenturaya daxil olanların sayı artacaq".

**Qabil ABDULLAYEV**

# Necə edək ki, "ürək desin yaşa hələ"?

## Gənclərdə ürək-təzyiq xəstəliklərinin çoxaldığını bildirən Qalib İmanov çıxış yollarını da göstərir

**"Bildiyimiz kimi, ölüm səbəbinə görə dünyada ilk yerlərdən birini ürək-damar xəstəlikləri tutur. Bu xəstəliklərin içərisində daha çox yayılanı isə arterial hipertenziya dediyimiz təzyiq və ürəyin işemik xəstəliyidir. Eyni zamanda anadangəlmə ürək qüsurları, ürəyin digər patologiyaları və qapaq xəstəlikləri ilə də tez-tez rastlaşırıq". Bu fikirləri ATU-nun Anesteziologiya və reanimotologiya kafedrasının dosenti, Tədris Cərrahiyyə Klinikasının İnvaziv kardiologiya şöbəsinin müdiri, həkim-kardioloq Qalib İmanov kardioloji xəstəliklərlə bağlı suallarımızı cavablandırarkən deyib.**



Arterial hipertenziya və ürəyin işemik xəstəliyinin çoxalmasına əsas səbəblərin həyat tərzi, ətraf sosial mühit, stres faktorları olduğunu söyləyən həkim-kardioloq, bu xəstəliklərin son dövrlərdə həm də cavanlaşdığını təəssüflə qeyd edib: "Əgər 20-30 il əvvəl gənclər arasında ürəyin işemik xəstəliyinə, təzyiqə çox nadir hallarda rast gəlinirdisə, indi gənclərin həmin xəstəliklərə məruz qalması həddindən artıq çoxalıb. Bu göstəriciyə görə, Azərbaycan digər dünya ölkələri ilə eyni səviyyədədir".

Q.İmanov cəmiyyətdə vaxtaşırı səslənən "qadınlara nisbətən kişilərdə ürək xəstəliyi daha çoxdur" fikrinə də aydınlıq gətirib. Təxminən 50 yaşa qədər kişilərdə ürək-damar problemlərinin daha çox olduğunu deyib. Sözlərinə onu da əlavə edib ki, menopauza dövründən, yəni 50 yaşdan sonra qadın və kişilərdə ürək xəstəliklərinə rastgəlmə tezliyi bərabərləşir: "Digər tərəfdən, bizim cəmiyyətin Avropa cəmiyyətlərindən fərqli cəhətləri var. Belə ki, Azərbaycan qadınlarının siqaret, alkoqol və narkotikdən istifadə kimi zərərli vərdişləri çox azdır. Bu nöqteyi-nəzərdən, ölkəmizdə ürək-damar xəstəliklərinə kişilərdə daha çox rast gəlinir".

Həkimin sözlərinə görə, ürək-damar xəstəliklərinin əsas risk faktorlarından biri də artıq çəki, əsasən də qarın tipli piylənmədir. Yağlı və duzlu yeməklərlə, xüsusilə də qırmızı ətlə qidalanmaq, həmçinin az hərəkətlilik, oturaq həyat tərzi artıq çəkinin əmələ gətirən başlıca səbəblərdir. Bütün bunlar ürək-damar xəstəliklərini tezləşdirən amillərdir. Gündəlik fiziki aktivlik isə ürək-damar xəstəliklərinin qarşısını almaq praktikasında əsas yer tutur. Aparılan elmi tədqiqatlarla da sübut olunub ki, gün ərzində 35 dəqiqə və yaxud 3 kilometr sürətli yerimək ürək-damar problemlərini azaldır.

Ürək-damar xəstəliklərinin başqa bir özəlliyinə də diqqət çəkən həkim bildirib ki, ürək digər orqanlar kimi deyil: "Məsələn, insan mədə qıcqırması hiss edərək onun 3-5 gün türkəçarə ilə müalicəsini apara bilər və ya öz-özünə keçib getməsini gözləyər. Amma ürək-damar xəstəliklərinin növündən və ağırlıq dərəcəsindən asılı olaraq, hətta dəqiqələrin də əhəmiyyəti böyükdür. İnsanın qəflətən küçədə yıxılıb dünyasını dəyişməsi mümkündür. Əvvəllər olmayan hər hansı bir təngnəfəslik, döş qəfəsində ağrı, hərəkət etməyə mane olan hallar ürək-damar probleminin ilkin əlamətləridir. Qol, hətta çənə, diş ağrısı formasında da ürək tutmalarına rast gəlinir. Ona görə də bu cür narahatlıqlar, ürək xəstəliyinə xas simptomlar hiss etdikdə, mütləq həkimə müraciət olunmalıdır".

Müsahibimiz ürək xəstəliklərinə qarşı profilaktik məqsədlə dərman qəbulu məsələsinə də toxunaraq qeyd edib ki, əvvəllər insanların 40 yaşdan sonra mədədə deyil, bağırsaqda həll olunan 80-100 mq aspirini hər gün qəbul etməsi məsləhət görülürdü: "Artıq profilaktik olaraq dərman qəbulu aradan qaldırılıb. İndi dərman yalnız xəstəyə diaqnoz qoyulandan sonra həkim tərəfindən təyin edilir. Amma bitki tərkibli vitaminlərlə, mikro-elementlərlə zəngin qida əlavələri var ki, hər kəs bunlardan istifadə edə bilər. Ürək-damar xəstəliklərinin ən vacib profilaktikası fiziki aktivlik, düzgün qidalanma, yuxu rejiminə əməl etmək, artıq çəkini, əgər yüksəkdirsə təzyiqi və şəkəri kontrolda saxlamaq, zərərli vərdişlərdən uzaq durmaqdır".

Bir çox ürək-damar xəstəliklərinin daimi nəzarət tələb etdiyini söyləyən kardioloq, müalicənin hər xəstəliyin dərəcəsinə uyğun aparıldığını vurğulayıb. Diqqətə çatdırıb ki, xəstələrin bəzilərini konservativ, bəzilərini isə invaziv üsulla müalicə etmək lazım gəlir: "Bu müalicələr effekt vermədikdə isə, cərrahi müdaxiləyə ehtiyac yaranır və xəstə əməliyyatla sağlam həyatına dönür. Əgər söhbət kəskin miokard infarktından gedirsə, bütün dünyada qəbul olunan rəhbər tövsiyələr əsas götürülür. Yəni xəstənin nə qədər ki ağrısı var, 2 saat ərzində angioqrafiya edilməli, tıxalı olan damar açılmalıdır. Həmçinin bir çox qapaq xəstəliklərinin və anadangəlmə ürək qüsurlarının da invaziv üsulla müalicəsinə üstünlük verilir. Hansı mərhələdə ki problem invaziv yolla aradan qalxmır, o zaman cərrahi müdaxilə mütləqdir".

Xəstələnməmək üçün ilk növbədə sağlam həyat tərzinin zəruriliyindən söhbət açan həkim-kardioloq bir daha xatırladıb ki, əgər xəstəlik varsa, profilaktik tədbirlərlə yanaşı, dərman müalicəsi də lazımdır. Artıq bu mərhələdə xəstənin 30 və ya 70 yaşında olmasının elə bir önəmi yoxdur. Profilaktik tədbirlər və müalicə bütün yaş qruplarına aiddir.

**A.KAMRANOĞLU**

**Martın 10-da Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında gənc həkim və rezidentlər üçün elmi-praktik seminar keçirilib.**



# Bir seminarda üç məruzə

Klinikanın rezidentlər üzrə məsul şəxsi, assistent Namiq Xəlilov bildirib ki, seminarın gündəliyinə salınan mövzular bu günümüzdə aktual problemə çevrilən Tiroid düyünlərin diaqnostikasına, müayinə və müalicəsinə həsr edilib. Məruzəçilər isə bu sahədə tanınmış və təcrübəli mütəxəssislərdir. Sonra söz məruzəçilərə verilib.

III Cərrahi xəstəliklər kafedrasının əməkdaşı, cərrah Esmira Məmmədova "Tiroid düyünlərin diaqnostikasında Tİ-RADS və Bethesda təsnifatının əhəmiyyəti", PSYCH-K üzrə mütəxəssis Mirşahin Əlizadə "Biopsiya öncəsi xəstələrin psixoloji vəziyyəti" və I Cərrahi xəstəliklər kafedrasının assistenti, t.ü.f.d. Azər Hümmətov isə "Qalxanvari vəzin hansı düyünlərində biopsiya necə aparılmalı" mövzularında çıxış ediblər. Tədbirdə yüksək həssaslıq və spesifikliyə malik TİRADS sistemləri və Bethesda barədə yeniliklər nəzərə çatdırılıb, bu təsnifatın birgə tətbiqinin lazımsız biopsiya və əməliyyatların azalmasına gətirib çıxardığı söylənilib.

Məruzələrdə müxtəlif xəstəliklər və stres arasındakı əlaqədən, müalicə müddəti ərzində şüuraltı inanclar və yıxıcı stresin balanslaşdırılmasından, həmçinin sürətli, asan və müasir dəyişiklik üsullarından söhbət açılıb. Mütəxəssislər əldə etdikləri təcrübələrin praktik xəstəlik hallarında necə tətbiq olunduğunu gənc həkim və rezidentlərə izah ediblər.

Bundan sonra hər üç mövzu ətrafında geniş müzakirələr aparılıb, həkim və rezidentlərin sualları məruzəçilər tərəfindən cavablandırılıb.

Qeyd edək ki, elmi-praktik seminar Uşaq xəstəlikləri kafedrasının assistenti Namiq Xəlilov və I Cərrahi xəstəliklər kafedrasının dosenti Abbas Abbasovun birgə moderatorluğu ilə keçirilib.

# Növbəti seminar şok və onun növləri barədə olub

**Martın 4-də Tədris Cərrahiyyə Klinikasında növbəti ənənəvi seminar keçirilib. Öncə ATU TCK-nın rezidentlər üzrə məsul şəxsi, Uşaq cərrahlığı kafedrasının assistenti Namiq Xəlilov çıxış edib.**



O, rezidentlərin bilik və bacarıqlarının artırılmasında bu kimi seminarların əhəmiyyətindən danışıb. Klinikanın Əməliyyatxana blokunun şöbə müdiri, Anesteziologiya və reanimatologiya kafedrasının assistenti, t.ü.f.d. Namaz İbrahimovun "Şokun etiopatogenezi və diaqnostikası" mövzusunda mühazirə deyəcəyini bildirib.

N.İbrahimov məruzəsində anestezioloq-reanimotoloqların gündəlik praktikada qarşılaşdığı kritik hallardan, o cümlədən xəstələrdə şok vəziyyəti və onun yaratdığı effektdən söhbət açıb: "Bildiyimiz kimi, şok - orqanizmin fövqəladə xarici qıcığa qarşı həyati vacib üzv və sistemlərin funksiyasını mühafizə etmək üçün vermiş olduğu kəskin kompensator cavab reaksiyasıdır. Şokun patogenezini, təsnifatını və mərhələsini dəqiq bilmək, müalicə tədbirlərinin düzgün seçimi insanın həyati vacib orqanlarının fəaliyyətini vaxtında bərpa etməyə kömək edir, xəstəni ölümdən qaytarır".

Mühazirəçi eyni zamanda şokun yaranma səbəbləri, onun növləri, tətbiq olunan müalicə üsulları və digər məqamlara da toxunub.

Seminar interaktiv şəraitdə işini başa çatdırıb, sonda mövzu ətrafında iştirakçilarla birgə geniş müzakirə aparılıb.

N.İbrahimov ona ünvanlanan çoxsaylı sualları ətraflı şəkildə cavablandırıb.

# "Tibb bacılığı nədir?"

**İctimai səhiyyə fakültəsinin Tələbə Gənclər Təşkilatının təşəbbüsü və təşkilatçılığı ilə "Capasity building club" çərçivəsində "Tibb bacılığı nədir?" adlı tədbir keçirilib.**



Tədbirdə çıxış edən TGT sədri, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının ATU üzrə nümayəndəsi Vaqif Abdullayev Tibb bacısı ixtisasının praktik əhəmiyyətindən söz açıb, tədbirin təşkilində dəstəyə görə fakültə dekanı, dosent Qalina Qəniyevaya və tədbirdə iştirakı üçün dosent İradə Əliyevaya öz minnətdarlığını bildirib. Təşkilatın sədr müavini Rəna Cumayeva isə sözügedən ixtisasın yaradılması haqqında ətraflı məlumat verib.

Sonra Bakı Sağlamlıq Mərkəzinin icraçı direktorunun inzibati işlər üzrə məsləhətçisi, Türkiyədə Qazi Universitetini bakalavr, Hacəttəpə Universitetini isə magistr və doktorantura üzrə bitirmiş, "Pedaqogika və məşğulolma" sertifikasiyasından uğurla keçmiş dosent İradə Əliyeva Tibb bacısı ixtisası mütəxəssislərinin vəzifələri və fəaliyyəti haqqında danışıb, Türkiyədə magistratura və doktorantura təhsil pillələri haqqında iştirakçıları məlumatlandırıb.

# Genetik xəstəliklər barədə məruzə oxunub

**Tədris Cərrahiyyə Klinikasında I və II Mamalıq-ginekologiya kafedralarının dəstəyi ilə seminar keçirilib. Seminarda TCK-nın laboratoriya müdiri Elxan Nağıyev, Türkiyənin İstinye Universitetinin genetika mütəxəssisi Afiq Axundov iştirak ediblər.**



I Mamalıq-ginekologiya kafedrasının dosenti Natəvan Axundova ayrı-ayrı klinik hallar zamanı genetik xəstəliklərin araşdırılması, prenatal diaqnostika barədə geniş məlumat verib. Tədbir iştirakçıları tərəfindən maraqla qarşılanan çıxışda anamnezidə İxtiyoz, Peyerson və Şarkot-maritut xəstəliyi, qeyri-immun hidropsun genetik markerləri aşkar olan uşaq doğmuş, vərdişli düşükləri olan qadınların xəstəlik tarixləri təqdim olunub.

Bundan sonra konkret klinik hallar, xromosom və gen xəstəliklərində müayinə alqoritmi müzakirə edilib.

**D vitamini yağda həll olan vitaminlər qrupuna aid olub, erqokalsiferol, xolekalsiferol, sitokalsiferol, 2,2-dihidroerqokalsiferol formada bioloji aktiv maddədir. Xolekalsiferol (D3 vitamini) insan dərisində B diapazonlu ultrabənövşəyi şüaların təsirindən sintez olunur. Erqokalsiferol (D2 vitamini) isə orqanizmə qida maddələri vasitəsilə daxil olur. Bunları ATU-nun Farmakologiya kafedrasının professoru, t.e.d. Vəli Əsmətov D vitamininin insan orqanizmi üçün əhəmiyyətindən danışarkən söyləyib.**



# Hər kəsin aptekdən D vitamini alıb qəbul etməsi düzgündür?

## Professor Vəli Əsmətov bu vitaminin insan orqanizmi üçün nə qədər əhəmiyyətli olduğunu açıqlayır

Professor bildirib ki, D vitamininin insan orqanizmində əsas funksiyalarından biri qida maddələrinin tərkibində olan kalsium və fosforu nazik bağırsaqlardan qana sormaqdan ibarətdir: "Bir sıra kliniki tədqiqatların nəticələrinə görə, D vitamini çatışmayan uşaqların orqanizmində raxitin inkişaf etməsi ilə yanaşı, gələcəkdə şəkərli diabet, piylənmə, autoimmun xəstəliklər, onkoloji xəstəliklər, ürək-damar xəstəlikləri, pullu dəmrov, allergik xəstəliklər və ən nəhayət, bağırsaqlarda iltihabi proses inkişaf edə bilər. D2 vitamini - erqokalsiferol bitkilərin hüceyrələrində erqosteroldan əmələ gəlir. Erqokalsiferolun əsas mənbəyi balıq əti, süd, çörək və göbələklərdir. Orqanizmə qida maddələri ilə daxil olmuş D2 vitamini öd turşularının iştirakı ilə, sonradan xilomikronların tərkibinə birləşərək limfa sistemi vasitəsilə venoz sistemə düşərək orada metabolizmə məruz qalır. Onun sorulması üçün qidanın tərkibində kifayət qədər piy olmalıdır. Qaraciyər və öd yollarının xəstəlikləri zamanı ödün sekresiyasının pozulması ilə əlaqədar olaraq D vitamininin bağırsaqlardan sorulması prosesi pozulur".

Sözünə davam edən V.Əsmətov deyib ki, prosesin aktivliyi Günəş altında şüalanma və dərinin piqmentləşmə dərəcəsindən asılıdır: "Epidermisdə xolekalsiferol D vitaminini özünə birləşdirən zülalla birləşərək 70 faizə qədəri qana sorulub qaraciyərə daxil olur, digər hissəsi isə piy hüceyrələrinə keçərək orada D vitamini deposunu əmələ gətirir. Məlum olub ki, dəri bir dəfə Günəş şüalarının altında qızartı dozasında şüa aldıqda, qanda D vitamininin miqdarı artır. Amma Günəş şüalarının təsirindən orqanizmdə D vitamini artıqlığı baş vermir. Buna səbəb isə artıq miqdarda olan D vitamininin dəridən qana keçə bilməməsidir. Yaş artdıqca, dəridə 7-dehidroxolesterolun miqdarı azaldığına görə D3 vitamininin də sintezi azalır. Xüsusilə 65-yaşdan sonra onun miqdarı norma ilə müqayisədə 4 dəfə azalır. Ona görə də belə hallarda D3 vitamininə orqanizmin tələbatı yaranır. D3 vitamininin birləşdiyi reseptorlar 38 orqanda mövcuddur".

Professorun sözlərinə görə, son illər aparılan elmi tədqiqatların nəticələri D vitamininin D-hormon olduğu barədə fikirləri gündəmə gətirib və bu vitaminin effektləri genlər və qeyri-genlər səviyyəsində özünü büruzə verib: "Gen səviyyəsində onun aktiv metabolitləri spesifik zülal reseptorları ilə birləşir. Hormon-reseptor kompleksinin özünün spesifik DNT ilə əlaqəli domeni mövcuddur. D vitamininin orqanizmdə sərbəst şəkildə sintez olunmasına baxmayaraq, onun defisiti müayinə olunan bir çox insanlarda müşahidə edilir. Amerika Osteopatlar Assosiasiyasının mütəxəssislərinin fikirlərinə görə, dünyada 1 milyarddan artıq insan D vitamini çatışmazlığından əziyyət çəkir. Buna səbəb isə insanların dərisinin solğun və ya tünd olması, yüksək dərəcədə Günəşdən qoruyan maddələrdən istifadə, dietik qida rasionu, piylərin istifadəsindən imtina, heyvani məhsullardan istifadə edilməməsi, Günəş az olan şimal regionlarda yaşama, evdə və ya gecə növbələrində işləmək, daxili orqan xəstəlikləri, kortikosteroidlərin və ateroskleroz əleyhinə dərman maddələrinin qəbuludur. Bu qeyd etdiyimiz hallar D vitamini hipovitaminozunun inkişafına səbəb olur. Bu zaman biz insanlara D3 vitaminini damcılar şəklində təyin edirik. D3 vitamini hüceyrələrin normal bölünməsinə, ürək-damar sistemi, endokrinologiya və onkoloji xəstəliklərin qarşısının alınmasına, həmçinin dərinin və tüklərin sağlamlaşmasına, maddələr mübadiləsinin normallaşmasına və immunitetin güclənməsi fonunda orqanizmin yoluxucu xəstəliklərə qarşı müqavimətinin artmasına səbəb olur. Xüsusilə D3 vitamini kişilərdə yoğun bağırsağın bədxassəli şişlərinin və qadınlarda süd vəzi xərçənginin inkişafını dayandırır. Onun digər xeyirli xüsusiyyətlərindən biri isə autoimmun reaksiyaları azaldaraq 1-ci tip şəkərli diabetin, revmatoid artritin, dağınıq sklerozun inkişafının qarşısını almasıdır".

Professor sonda insanlarımızın D vitamininə olan və xüsusilə koronovirus dönəmində yüksələn həvəsini nəzərdə tutaraq bildirib ki, nə qədər faydalı olsa da, dərman maddəsi olduğu üçün onu özbaşına alıb qəbul etmək yolverilməzdir.

**M.ƏLƏKBƏROV**

# Yeni dərslik tələbələrin istifadəsinə verilib

**Bu günlərdə Farmakologiya kafedrasının professoru Vəli Əsmətov, kafedranın müdiri, professor Musa Qəniyev və kafedranın baş müəllimi, ə.ü.f.d. Gülnarə Qasımovanın həmmüəllifliyi ilə "Farmakologiya. Təcrübə-məşğələ dərslərinə rəhbərlik" adlı dərsliyin 1-ci nəşri çapdan çıxıb.**

Farmakologiya fənninin tədris proqramı əsasında yazılan və 370 səhifədən ibarət olan bu kitab nəfis tərtibatla çap edilib. Dərslik Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının qərarı əsasında təsdiq edilib və ATU-nun bütün tələbələri üçün nəzərdə tutulub.

İki bölmədən ibarət olan dərsliyin birinci bölməsi ümumi farmakologiyaya həsr olunub. Burada dərman maddələrinin farmakokinetikası və farmakodinamikasının ümumi qanunauyğunluqları barədə məlumatlar illüstrasiyalarla zənginləşdirilmiş şəkildə verilib. Kitabın ikinci bölməsi isə xüsusi farmakologiyanı əhatə edir və o, farmakologiya fənninin müasir tədris proqramına uyğun olaraq tərtib edilib. Bu bölmədə ümumilikdə xüsusi farmakologiyaya aid olunan dərman maddələrinin istifadə sahələri, ən müasir təsnifatları, ayrı-ayrı dərman maddələri üçün xarakterik xüsusiyyətlər, əsas və əlavə effektləri, istifadələrinə əks göstəriş barədə öyrənmək olar.

Bütün bunlarla yanaşı, tələbələrin kafedrada öyrəndikləri dərman maddələrinin eksperimental təcrübələrdə effektlərini özlərinin müşahidə etməsi məqsədilə kitabda hansı bölmələrə aid hansı eksperimental işi sərbəst şəkildə, heyvanlarla humanist davranmaq şərtilə, həyata keçirmələri üçün təcrübələrin gedişi barədə məlumatlar verilib. Hər mövzunun sonunda farmakoterapiya sualları qoyulub ki, bu da tələbələrin sərbəst çalışmasına və öyrəndikləri dərman maddələrinə aid hansısa xəstəliklərin müalicəsi üçün resept yazmağa kömək edəcək.

Dərslik dərmanların Azərbaycan və latın dilində adlarının düzgün yazılması, formasından asılı olaraq buraxılış dozaları və istifadə dozaları göstərilməklə yekunlaşır.




Kitab farmakologiya elminin tibb, hərbi tibb, stomatologiya, ictimai səhiyyə və əczaçılıq fakültələrinin tələbələri tərəfindən mənimsənilməsi üçün Nazirlər Kabinetinin təsdiq etdiyi proqrama uyğun tərtib olunub. Həmçinin fənnin tədrisi ilə məşğul olan professor-müəllim heyəti, tədrisin rezidentura mərhələsində təhsil alan gənc həkimlər və bu elm sahəsi ilə məşğul olan tədqiqatçılar da dərslikdən istifadə edə bilər.

# Təbiətin möcüzəsi - İstisu



**Paşa Mehdiyev,**
*Fizioterapiya və tibbi reabilitasiya kafedrasının müdiri, dosent*

**Mineral sulardan müalicə məqsədilə istifadə olunması tarixin ən darin köklərinə gedib çıxır. İnsanlar onların müalicəvi təsirinə biganə münasibət göstərə bilməzdilər. Ədəbiyyat mənbələrində mineral sulardan Mesopotamiyada müalicə məqsədilə istifadə olunması haqqında tarixi məlumat e. ə. 3-cü minilliyə aiddir. Mineral sulardan məşhur həkimlər Hippokrat, İbn Sina, Pliney öz təcrübələrində istifadə ediblər, bu barədə yazıblar.**

Yeraltı, yerüstü sərvətlərlə zəngin olan ölkəmizin ərazisində mineral bulaqlar çoxdur. Onların içərisində tərkibinin zənginliyinə və müalicəvi təsirinə görə ən çox istifadə olunan Kəlbəcər rayonu ərazisindəki İstisudur. Onun müalicəvi təsiri haqqında ilk yazılı məlumatlar XIX əsrin ikinci yarısından başlayır. İstisu regionunda hidrogeoloji əməliyyatların aparılması və suyun fiziki-kimyəvi xüsusiyyətlərinin dövlət səviyyəsində elmi cəhətdən öyrənilməsi 1925-ci ildə Azərbaycan SSR Səhiyyə Komissarlığı nəzdində Kurort idarəsinin yaradılmasından sonra başlanıb. Mənbədən Bakıya gətirilərək kimyəvi tərkibi öyrənilən zaman suyun Çexiya Respublikasındakı Karlovı Varı suyunun tərkibinə çox yaxın olduğu aydınlaşanda, ona maraq xeyli artıb. Bundan sonra müxtəlif peşə sahiblərindən ibarət mütəxəssislərdən təşkil olunmuş ekspedisiya qrupu İstisuya gedərək relyefin xüsusiyyətlərini, iqlimini, hidrogeologiyasını və suyun xüsusiyyətlərini araşdırıb. 1935-ci ildə Bakıda təşkil olunan Kurortologiya və Fiziki Amillərlə Müalicə İnstitutunun təşkilatçılığı ilə Azərbaycan Tibb İnstitutunun bir sıra kafedralarının alimləri İstisu kurort amilinin normada və patologiyada orqanizmə təsirini öyrənməyə başlayıblar.

Tərtər çayının başlanğıcında olan saysız-hesabsız bulaqların suyu minerallıq xüsusiyyətinə görə iki qrupa bölünür: şirin və mineral su. Şirin su bulaqlarının temperaturu aşağı (10-15°C, az minerallı - 0,3 q/1), ümumi debiti isə çoxdur. Şirin sular əsasan Tərtər çayının sol sahilindədir. Çayın sağ sahilində İstisu kurort rayonuna daxil olan mineral sular termal tipli (21.6-dan- 62° C), tərkibi karbon qazlı-hidrokarbonatlı-xloridli-sulfatlı-kalsiumlu, minerallığı 4,3-6,7 q/1, ümumi debiti isə sutkada 2.000.000 litrdir. Mineral suyun çıxdığı ərazi dəniz səviyyəsindən 2200-2300 metr yüksəklikdə yerləşir. Uca dağlar qoynundan fəvvarə vuran bu termal suyun yerləşdiyi ərazidə meşəliklər olmamasına baxmayaraq, oranın havası təmiz-safdır, heyrətamiz mənzərələri, çəmənlikləri ilə göz oxşayır və burada müalicə olunmaq istəyənlərin əhval-ruhiyyəsini daha da yüksəldir.



İstisuyun kimyəvi tərkibi çox zəngindir. Onun tərkibində karbonat, sulfat, xlor anionları, natrium, kalium, kalsium kationları ilə yanaşı, yod, brom, fosfor, arsen, litium, rubidium və s. kimi mikroelementlər də var. Bütün bu zənginlik suyun müalicəvi keyfiyyətini çox yüksəldir. Onu da qeyd etmək lazımdır ki, kurort şəraitində aparılan müalicənin effekti daha yüksək olur. Ona görə ki, yüksək dağ iqlimi şəraitində havanın təmizliyi, ələlxüsus da həm ultrabənövşəyi şüaların intensivliyi, həm də havada olan mənfi aeroionların miqdarının çox olması xəstələrin əhval-ruhiyyəsinə müsbət təsir göstərir. Bunlarla yanaşı, dağ mənzərəsi, hər tərəfdə al-əlvan gül-çiçəklik, yaşıllıq, suların şırıltısı sinir sisteminə sakitləşdirici təsir göstərməklə müalicə alanların həyat keyfiyyətini yüksəldir, xəstəliklərin tez bir zamanda yaxşılaşmasına kömək göstərir. Regionun Bağırsaq adlanan ərazisində çıxan suyun hərarəti soyuq olduğundan (18 dərəcə) mineral suyun tərkibində yüksək radioaktivlik müşahidə olunur. Həmin suların tərkibində həm radon, həm də onun izotopu olan radium var. Beləliklə, suyun tərkibində radioaktivliyin olması İstisuya olan balneoloji marağı daha da artırır.

Daxilə içilərək qəbul olunan mineral sular mədənin turşu əmələ gətirmə funksiyasına, selikli qişalarda trofiki proseslərə, mədəaltı vəzin şirə ifrazına, mədənin, onikibarmaq bağırsağın və öd kisəsinin motor fəaliyyətinə təsir göstərir, qaraciyərin qan dövranını və qaraciyər ödünün sekresiyasını artırır, orqanizmin immunoloji reaktivliyinə təsir göstərir, RNT-nin tərkibində olan fermentlərin oksidləşmə-bərpa olunma aktivliyini dəyişir. İçilən su mədə və nazik bağırsağın yuxarı şöbəsindən tez bir zamanda qana sorularaq sidik ifrazını artırır, kiçik daşların, duzların və seliyin həll olunaraq xaric olunmasını asanlaşdırır. Mineral suyun tərkibində olan üzvi maddələr (naftenlər, huminlər, fenollar, bitumlar) qaraciyər hüceyrələrində (hepatositlərdə) toksinlərin biotransformasiyasını, mineral mübadiləni stimullaşdırır. Eyni zamanda bağırsaqların mikroflorasını fəallaşdıraraq onların antibakterial və bioloji fəal maddələr əmələ gətirmə qabiliyyətini artırır. Metabolik asidozla müşayiət olunan patologiyalar zamanı (şəkərli diabet, mədə, bağırsaq, qaraciyər xəstəlikləri) daxilə qəbul olunan hidrokarbonatlı sular turşu-qələvi nisbətini normallaşdırır.

Həzm sistemi xəstəlikləri: xroniki qastrit, mədə və onikibarmaq bağırsağın xora xəstəliyinin yarımkəskin və remissiya dövrü, xroniki kolit, enterokolit, qəbizlik, xroniki xolesistit, xroniki hepatit, xroniki pankreatit, yuxarı tənəffüs yollarının xəstəlikləri: laringit, traxeit, bronxit, sidik ifrazat sisteminin xəstəlikləri: pielit, sidik daşı xəstəliyi, sidik yollarının duzları, sistit, mübadilə pozğunluqları ilə gedən xəstəliklər: şəkərli diabet, piylənmə, tireotoksikoz, podaqra, anemiya, osteoporoz, parodontoz zamanı müalicəvi əhəmiyyəti böyükdür.

Həzm sistemi xəstəliklərinin kəskin dövrü, qanaxmalar, qusmalar, yemək borusu və mədə çıxacağının dekompensasiya olunmuş stenozu, qan dövranı çatışmazlığının dekompensasiya mərhələsi, kəskin böyrək və qaraciyər çatışmazlığı, Kron xəstəliyi, qeyri-spesifik xoralı kolit, sidik ifrazatı yollarının vərəmi xəstəliklərində isə əks göstərişdir.

İstisuyun daxilə qəbulu mədə turşuluğunun və bağırsaqların hərəki fəaliyyətinə uyğun təyin olunur. Belə ki, turşuluq normal, yaxud yüksək olarsa yeməkdən 1-1,5 saat əvvəl, kiçik qurtumlarla, turşuluq az olan zaman yeməkdən 20-30 dəqiqə əvvəl kiçik qurtumlarla 180-200 ml, gündə 3 dəfə, uroloji patologiyalar zamanı gündə 5-6 dəfə içilməsi məsləhətdir. İshala meyllik zamanı suyun hərarəti 45-50° C, qəbizlik zamanı 25-300 C olmalıdır. Bir kurs müalicəsi 22-26 gündür. Təkrar müalicə kursu 6 aydan sonra aparıla bilər. Vanna şəklində qəbulu zamanı suyun hərarəti 35,5-36 °C, müddəti 10-12 dəqiqə olmalıdır. 12-15 vanna qəbulu bir kurs müalicə sayılır. İstisudan, həmçinin mədə-bağırsaq traktının və öd yollarının zondsuz yuyulması (tübaj) şəklində də istifadə etmək faydalıdır.

**Tədris Terapevtik Klinikada rezidentlər üçün növbəti seminar baş tutub. Rezidentlər qarşısında "qalxanabənzər vəzin iltihabi xəstəlikləri" mövzusunda klinikanın həkim-endokrinoloqu Sevil Mustafayeva çıxış edib.**

## Endokrinoloq "Qalxanabənzər vəzin iltihabi xəstəlikləri" haqda danışıb



Məruzəçi çıxışında bildirib ki, qalxanabənzər vəzin iltihabi xəstəliklərinə autoimmun tireoidit, toksik ur, postpartum tireoidit, kəskin və yarıkəskin, amiadaron və sitokin induksiyalı, palpator, Ridl tireoiditləri aiddir.

Tireoditlər haqqında ətraflı məlumat verən həkim qeyd edib ki, "kəskin" tireoiditi bakteriyalar yaradır. Çox vaxt burun-boğaz infeksiyası ilə əlaqəlidir (tonzillit, sinusit, larinqit və s.). Qanda olan hər hansı bir infeksiya, əksər hallarda isə Staphylococcus, Streptococcus, Klebsiella sp, Enterobacteriace iltihab səbəbi ola bilər.

S.Mustafayeva "kəskin qeyri-irinli" və "yarımkəskin" tiroiditlərdən də danışıb. Bildirib ki, kəskin qeyri-irinli tiroidit radiasiya terapiyasından sonra, vəzin mexaniki zədələnməsi ilə baş verir. Yarımkəskin tiroidit isə ağır virus infeksiyasına reaksiya olaraq inkişaf edir (parotit, qrip, qızılca və s.). Funksional hüceyrələr məhv edilir, hormonlar qana daxil olur və anormal immun reaksiyaya səbəb olur.

Haşimoto autoimmun tiroiditindən danışan məruzəçi, bu tiroiditin insan orqanizmində müəyyən növ antigenlərin sintezinə təsir edən mutasiyalarla xarakterizə olunduğunu bildirib. Qeyd edib ki, immun sistemi vəzinin sağlam toxumasına yad formasiya kimi reaksiya verməyə başlayır və normal hüceyrələrə hücum edərək patoloji dəyişikliklərə səbəb olan xüsusi zülalların sintezinə başlayır. İmmunokompetent strukturların cəlb edilməsi səbəbindən iltihab uzanır.

Həkim tiroiditlərin müalicəsi haqqında da ətraflı məlumat verib.

# Həkim-rezidentlər üçün seminar keçirilib



**Ağciyər xəstəlikləri kafedrasında həkim-rezidentlər üçün növbəti seminar keçirilib.**

Seminarda kafedranın ftiziatriya ixtisası üzrə həkim-rezidenti Türkan Məmmədzadə "Kazeoz sətəlcəm" mövzusunda məruzə ilə çıxış edib. Məruzəçi kazeoz sətəlcəmin klinik-diaqnostik xüsusiyyətləri haqqında ətraflı məlumat verib. Mövzu ətrafında müzakirələr aparılıb, məruzə qənaətbəxş hesab olunub.

Qeyd edək ki, Ağciyər xəstəlikləri kafedrasında tələbələr, həkim-rezidentlər və gənc həkimlər üçün mütəmadi olaraq belə seminarlar keçirilir.

**ATU-nun Tədris Cərrahiyyə Klinikasında 1 Mart – Beynəlxalq Mülki Müdafiə Günü münasibətilə "Fövqəladə hadisələr zamanı risklər və kütləvi informasiya vasitələrinin rolu" mövzusunda tədbir keçirilib.**

# Fövqəladə hallar zamanı davranış qaydaları müzakirə olunub



Tədbiri açan TCK-nın Mülki Müdafiə Qərargahının rəisi Azər Cəfərovun verdiyi məlumata görə, Beynəlxalq Mülki Müdafiə Təşkilatının qərarı ilə 1972-ci ildən etibarən hər il martın 1-i bu təşkilata üzv olan ölkələrdə Ümumdünya Mülki Müdafiə Günü kimi qeyd edilir. Hazırda Beynəlxalq Mülki Müdafiə Təşkilatına dünyanın 50-dən artıq ölkəsi daxildir. Azərbaycan isə 1993-cü ildən həmin təşkilatın üzvüdür. A.Cəfərov iştirakçıların nəzərinə çatdırıb ki, bu günün hər il qeyd olunmasında məqsəd ictimaiyyətin diqqətini mülki müdafiə işinin təşkili məsələlərinə cəlb etməkdir: "Bu münasibətlə ölkəmizin hər yerində olduğu kimi, Tibb Universitetində və eləcə də klinikamızda hər il müxtəlif seminarlar və toplantılar keçirilir, mülki müdafiə işi ilə bağlı tədbirlər təşkil olunur. Burada əsas məqsəd əhalinin və tələbələrin diqqətini fövqəladə hallar zamanı davranış qaydalarının düzgün mənimsənilməsinə yönəltmək, fərdi mühafizə vasitələrindən istifadə etmək, bir sözlə, qaydaları nəzəri və əməli cəhətdən öyrətməkdir.

Tədbirdə fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün fövqəladə hadisələr zamanı davranış qaydalarından bəhs edən söhbətlər aparılıb və əyani vəsaitlər, o cümlədən yanğının söndürülməsi nümayiş olunub.

# ATU-nun komandası XV Universiadanın şahmat üzrə qalibi olub



**Gənclər və İdman, Elm və Təhsil nazirlikləri, "Gənclik" Tələbə İdman Cəmiyyətinin birgə təşkil etdiyi Ali Təhsil Müəssisələri arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş şahmat üzrə XV Respublika Universiadası keçirilib.**

Azərbaycan Tibb Universitetini yarışda "Təbib" idman klubunun məşqçi-müəllimi Kübra Bacaraninin rəhbərliyi ilə 3 oğlan və 2 qız tələbə təmsil edib. Bu haqda "Təbib" qəzetinə "Təbib" idman klubunun sədri, pedaqogika üzrə fəlsəfə doktoru Qələndər Aslanov məlumat verib.

Onun sözlərinə görə, yarışda 15 komandanın iştirakı gözlənilsə də, əsasnaməyə görə Bədən Tərbiyəsi və İdman Akademiyasının komandasının sırf peşəkarlardan ibarət olduğu nəzərə alınaraq, həmin komandaya müsabiqədən kənar texniki 1-ci yer verilib. Beləliklə, qalan 14 komanda öz aralarında 7 turdan ibarət SX-VENİNGEN sistemi üzrə mübarizə aparıb. Burada Azərbaycan Tibb Universitetinin komandası ilə yanaşı, Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Mühəndislik Universiteti, Bakı Dövlət Universitetinin komandaları da favorit komandalar sayılırdı.

Komandamız gərgin mübarizədən sonra Bakı Mühəndislik Universiteti ilə eyni - 7 oyunda 35 mümkün xaldan 25 xal toplayaraq 1-ci və 2-ci yerləri bölüşüb. Öz aralarındakı görüşə və əlavə hesablamalara görə, ATU-nun komandası 1-ci yerə layiq görülüb. Komandanın rəhbəri diplom və medalla təltif olunub.

Qeyd edək ki, komandamızın tərkibinə Fərid Məlikov (I MPF), Zaur Balayev (II MPF), Vüsal Həsənzadə (HTF), Elyanura Hicran (rezident) və Nuranə Rəhimli (Əczaçılıq) daxil idi.

**Dünyadan bizimkilər**

# "Dünyada bundan gözəl nə ola bilərdi?"

## Güneyli tələbəmiz Bakıda təhsil alacağı xəbərini belə qarşılayıbmış

**Məhəmməd Ərdəbili Azərbaycanın Güneyində - Ərdəbil şəhərində anadan olub. Böyüdükcə bilib ki, Azərbaycanın Quzeyi də var. Könlündən keçib ki, Bakını görsün, Gəncəni gəzsin, dahi Nizaminin məqbərəsini ziyarət eləsin. Bu arzusu sonda onu Azərbaycan Tibb Universitetinə gətirib çıxarıb.**

Məhəmməd Bakıda tələbəliyin xəyalını qursa da, onun reallaşacağına çox da inanmırmış. Deyir, universitetə qəbul olunduğu xəbərini alanda, bunu Tanrının ən böyük mükafatı kimi qəbul edib, göz yaşlarını saxlaya bilməyib: "Çoxdan arzuladığım Bakını, Azərbaycanı ürəyim istədiyi qədər gəzəcək və öz doğma dilimdə - ana dilimdə təhsil alacaqdım. Siz deyin, dünyada bundan gözəl nə ola bilərdi?"

M.Ərdəbili uşaqlıq arzusunu dəmək olar ki, həyata keçirib. O, hazırda Tibb Universitetinin Stomatologiya fakültəsinin 5-ci kursunda oxuyur. Ərdəbildə orta təhsil alan Məhəmməd qiraət həvəskarı olub. Məktəbdə təşkil olunan ədəbi tədbirlərdə iştirak edib: "Məhəmmədhüseyn Şəhriyarı çox sevirəm. Onun əsərlərini qiraət etməkdən xüsusi zövq alıram. Şəhriyar poeziyası oxunaqlıdır, yaddaqalandır, sanki bal ilə qaymağı bir qabda qarışdırıb yeyirsən. Şəhriyar İranda çox önəmli bir şairdir. Rəsmi səviyyədə dahi şairin şərəfinə poeziya günləri keçirilir. Şəhriyarın fars dilində, Azərbaycan türkcəsində çox gözəl əsərləri var. Baxıram, onun "Heydərbabaya salam"ı o tay - bu tayda çox məşhurdur, dillər əzbəridir. Sizdə onun bu əsərindən parçalar bilməyən yoxdur. Bu da olduqca sevindirici haldır. Hər dəfə Şəhriyarın "Səhəndiyyə"sini oxuyanda həm çox kövrəlir, həm də çox qürurlanıram. İçimdən qəribə hisslər keçir. Şəhriyar bu əsərini müasiri olmuş çox istedadlı bir şairə - Səhənd təxəllüslü Bulud Qaraçorluya həsr edib.

Asim Ərdəbili də çox oxunan şairlərdəndir. O, "Cəhənnəmdə bitən gül" əsərində müasir dövrün gerçək bir eşq hekayəsini qələmə alıb. Əyyub və Suru adlı iki gəncin nakam sevgisindən bəhs olunur.

Heç yadımdan çıxmaz. Bir dəfə Ərdəbil Bələdiyyəsi Asim Ərdəbilinin yaradıcılıq gecəsini keçirirdi. Mən də həmin gecədə idim. Çıxış etdilər, şairin şeirlərini səsləndirdilər. Sonda sözü şairin özünə verdilər. Şair "Cəhənnəmdə bitən gül" əsərindən misralar söyləyirdi:

***Suru kimdir?***
***Suru bir güldü cəhənnəmdə bitibdir,***
***Suru bir damcıdı gözdən axaraq üzdə itibdir.***
***Suru yol yolçusudur, əyridə yox, düzdə itibdir,***
***Suru bir mərsiyədir, oxşayaraq sözdə itibdir.***
***O könüllərdə itmişdi əzəldən, odu gözdən də itibdir...***

Elə bu zaman əlində gül tutmuş yaşlı bir xanım zaldan qalxaraq ona yaxınlaşdı. Şair və zalda əyləşənlər şoka düşdü. Bu, Suru idi. Şairin əsərinin nakam qəhrəmanı... Hamı bu mənzərədən təsirlənmişdi..."



Qəhrəmanımız Şimali Azərbaycanın şairlərini də oxuyur. Bəxtiyar Vahabzadə, Məmməd Araz, Nəriman Həsənzadə, Ramiz Rövşən, Musa Yaqub, Nüsrət Kəsəmənli, Vahid Əziz onun sevdiyi şairlərdəndir. Klassiklərimizi də daim mütaliə edən Məhəmməd universitetdə keçirilən ədəbi tədbirlərdə fəal iştirak edir. Dahi şair Nəsiminin 650 illik yubileyində böyük həvəslə onun şeirlərini səsləndirib. Yasamal rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "Şuşa İli" çərçivəsində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında "Mənim Azərbaycanım" adlı şeir müsabiqəsində isə 1-ci yerə layiq görülüb.

M.Ərdəbili hazırda böyük həvəslə Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə keçiriləcək tədbirə hazırlaşır.

Tələbə yoldaşlarından, müəllimlərindən (Azərbaycan dili kafedrasının müəllimi Dürdanə Nağıyevanı xüsusi vurğulayır) razılıq edən cənublu soydaşımız Azərbaycan sevgisini daim ürəyində yaşadacağını vurğulayır.

**Etibarsız sayılır**

Fateh Daryani Daryoush (qrup 421İ2a); Vaghef-Noshirvani (qrup 421A5a) və Rama Shehatha Mazen qızının (317İ4) tələbə bileti, Hadis Bahramkhani Alirezanın (qrup 117İ1) müvəffəqiyyət kitabçası itdiyi üçün etibarsız sayılır.

**Allah rəhmət eləsin!**

İnsan anatomiyası və tibbi terminologiya kafedrasının əməkdaşları kafedranın dosenti Arifə Məmmədovaya bacısının yoldaşı

**Eldar Qocayevin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ETM-in kollektivi iş yoldaşları Sabir Sadıqova əzizi

**Mahirə Əliyevanın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bioloji kimya kafedrası əməkdaşları Azərbaycan Dillər Universitetinin əməkdaşı, filologiya üzrə elmlər doktoru, dosent Şəhla Nağıyevaya bacısı

**Təranə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər .

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın baş müəllimi Şahmar Məmmədova kürəkəni

**Araz bəyin**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Normal fiziologiya kafedrasının əməkdaşları kafedranın laborantı Firuzə İmanquliyevaya anası

**Hafizə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İctimai fənlər kafedrasının əməkdaşları Atakişizadələr ailəsinə əzizləri

**Minayə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR:

**Kafedraların müdirləri:**

- Psixiatriya kafedrası
- I Cərrahi xəstəliklər kafedrası
- I Mamalıq və ginekologiya kafedrası
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası

**Kafedraların professorları:**

- Psixiatriya kafedrası - 1 yer (0,5 vahid)
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer (0,5 vahid)
- I Mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ağız və üz-çənə cərrahiyyəsi kafedrası - 1 yer (0,5 vahid)
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid)
- II Daxili xəstəliklər kafedrası - 1 yer
- III Daxili xəstəliklər kafedrası - 1 yer
- Urologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer (0,5 vahid)

**Kafedraların dosentləri:**

- Azərbaycan dili kafedrası - 1 yer (0,75 vahid)
- Azərbaycan dili kafedrası - 1 yer
- Farmakoqnoziya kafedrası - 1 yer (0,5 vahid)
- Allerqologiya və immunologiya kafedrası - 1 yer
- I Cərrahi xəstəliklər kafedrası - 1 yer
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid)
- Bioloji kimya kafedrası - 1 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer
- Ailə təbabəti kafedrası - 3 yer (0,5 vahid)

**Kafedraların assistentləri:**

- Ağciyər xəstəlikləri kafedrası - 1 yer
- I Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,75 vahid)
- II Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,25 vahid)
- Oftalmologiya kafedrası - 1 yer (0,5 vahid)
- Urologiya kafedrası - 1 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer
- Ailə təbabəti kafedrası - 3 yer (0,5 vahid)
- Ailə təbabəti kafedrası - 1 yer (0,25 vahid)

**Kafedraların baş müəllimləri:**

- Tibbi mikrobiologiya və immunologiya kafedrası - 1 yer (0,5 vahid)
- Farmakoqnoziya kafedrası - 1 yer (0,5 vahid)
- Normal fiziologiya kafedrası - 1 yer

**Kafedranın müəllimi:**

- Tibbi profilaktika kafedrası (HTF) - 1 yer

**Elmi Tədqiqat Mərkəzi:**

- Bioloji fəal maddələrin sintezi şöbəsi (baş elmi işçi) - 1 yer (0,5 vahid)

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir:**

**AZ 1007, Bakı şəhəri, Ənvər Qasımzadə küçəsi, 14**
**Telefon: 597-10-08**

### Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə

**Kafedralar üzrə vakant yerləri tutmaq üçün müsabiqədə iştirak edənlər Elmi katibliyə aşağıdakı sənədləri təqdim etməlidirlər:**

1. Rektorun adına ərizə.
2. Kadrlar uçotunun şəxsi vərəqəsi (yeni formatda).
3. Kafedradan verilmiş xasiyyətnamə. Xasiyyətnaməni kafedranın müdiri və həmkarlar təşkilatının sədri imzalamalıdır. Xasiyyətnamənin müsbət və ya mənfi olması, o cümlədən bu şəxsin yeni müddətə kafedrada çalışıb və ya çalışmaması əsaslandırılmalıdır. Kafedra müdiri vəzifəsinə iddiaçılara xasiyyətnaməni fakültənin dekanı və həmkarlar təşkilatının sədri imzalamalıdır.
4. Tərcümeyi-hal. Burada şəkil, ad, soyad, bitirdiyi məktəblər, elmi ad və dərəcələr, bildiyi dillər, bildiyi kompüter proqramları, çap olunmuş işlərin sayı, işlədiyi yerlər, hazırkı vəzifədə neçə il çalışması, niyə bu vəzifəyə yenidən seçilmək istəməsi, olduğu ixtisasartırma kursları, ailə vəziyyəti barədə ətraflı məlumat, yaşadığı ünvan, elektron poçt ünvanı və telefonu göstərilməlidir.
5. ATU-nun klinikalarında çalışanlar üçün son beş ilin həkimlik fəaliyyəti barədə klinikadan verilmiş arayış. Arayış klinikanın direktoru və həmkarlar təşkilatının sədri tərəfindən imzalanmalıdır.
6. Son beş il ərzində çap olunan elmi işlərin siyahısı. Siyahı müəllif və kafedra müdiri tərəfindən imzalanmalıdır.
7. Açıq mühazirənin və ya açıq təcrübi dərsin videoçəkilişinin diski.
8. Şəxsiyyət vəsiqəsinin surəti.
9. Müvafiq elmi dərəcə diplomu və elmi ad attestatının surəti.

**Qeyd: ATU-nun əməkdaşı olmayan mütəxəssislər siyahıdakı 3-cü, 5-ci və 7-ci bənddəki sənədlərin əvəzinə, sonuncu iş yerindən verilən xasiyyətnamə, işlədiyi klinikadan həkimlik fəaliyyəti barədə arayış və əmək kitabçasından çıxarışı təqdim etməlidir.**

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0005
Sayı 800